**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by** **Autumn 2022 / 9-3**

https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.256

# 1937-1938-ci il Repressiyalari Sovet Dövlətinin Azərbaycan Xalqına Qarşı Soyqırımı Siyasətinin Davamı

**Mais Əmrahov**[*]

**ORCİD: 0000-0003-2504-3034**

**Xülasə**

Məqalə XX əsrin 20-30-cu illərində sovet dövlətinin Azərbaycan xalqına qarş apardığı soyqırımı siyasətinin mahiyyətinin açılmasına həsr olunmuşdur. Qeyd olunur ki, AXC-ni tanımaqdan imtina edən Sovet Rusiyası müxtəlif üsullarla Cənubi Qafqazda böyük nüfuza sahib Azərbaycan hökumətinə təzyiq göstərir, daxili sabitliyi pozmaq üçün müxtəlif partiyalarla əlaqə yaradır. Bakı neft rayonunu ələ keçirmək üçün Sovet Rusiyasının rəhbəri V.İ. Lenin Stalin, Mikoyan, Kirov və Orconikidzenin vasitəsilə planlar hazırlayırdı. Məqalədə, 1920-1930-cu illərdə Azərbaycanda kütləvi repressiyaların həyata keçirilməsi ilə bağlı dəyərli faktlardan istifadə edilmişdir. Belə ki, sovet hakimiyyətinin Azrbaycan xalqına qarşı 3 mərhələdə repressiya siyasəti həyata keçirmişdir. Birinci mərhələsi Lenin və Trotski tərəfindən yaradılan həbs düşərgələrinə Azərbaycan ziyalılarının kütləvi göndərilməsidir. Bu mərhələ aprel işğalından 20-ci illərin sonunadək davam etmişdir. 2-ci mərhələ 20-ci illərin sonu 30-cu illərin əvvələrinə aiddir. Bu mərhələdə qolçomaq adı altında kütləvi həbslər həyata keçirilmiş, sovet hakimiyyətiin düşmənləri quldur qrupunun üzvləri uzaq yerlərə sürgünə göndərilmişdilər. 3-cü mərhələ 1936-1938-ci illəri əhatə edir. 1937-1938-ci illər repressiyaları zamanı Azərbaycan xalqının milli-mənəvi sərvətlərinə, mədəniyyətinə, adət və ənənələrinə güclü zərbə vurulmuşdur.

**Açar sözlər:** Azərbaycan Xalqı, Sovet Dövləti, 1937-Ci Il, Repressiya, Soyqırımı Siyasəti

**Gönderme Tarihi: 06/04/2022** **Kabul Tarihi:21/09/2022**

---

[*] *Profesor, AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun Azərbaycan Respublikasının tarixi şöbəsinin müdiri, Bkı-Azerbaycan, emrahov48@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***

ƏMRAHOV, M., "1937-1938-ci il Repressiyalari Sovet Dövlətinin Azərbaycan Xalqına Qarşı Soyqırımı Siyasətinin Davamı", *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s.792-819.

# Repressions of 1937-1938, Thecontinuation of Genocide Policy of Soviet State Against Azerbaijan People

**Mais Amrahov***
**ORCİD: 0000-0003-2504-3034**

**Abstract**

The article is devoted to revealing the essence of the genocidal policy of the Soviet state against the Azerbaijani people in the 20s and 30s of the 20th century. It is recorded that the Soviet Russia, refusing to recognize the APC, puts pressure on the Azerbaijani government, having considerable influence in the South Caucasus, in various ways, contacted different parties to destablize the internal stability. To seize the Baku oil region, the head of Soviet Russia, V.I.Lenin was preparing plans with the help of Stalin, Mikoyan, Kirov and Ordzhonikidze. Valuable facts related to the implementation of mass repressions in Azerbaijan in the 1920s and 1930s were used in the article. Thus, the Soviet government implemented a policy of repression against the people of Azerbaijan in 3 stages. The first stage is the mass sending of Azerbaijani intellectuals to prison camps created by Lenin and Trotsky. This stage lasted from the April occupation until the end of the 20s. The second stage refers to the late 20s to early 30s. At this stage, mass arrests were carried out under the guise of kolchomag, enemies of the Soviet government, and members of the bandit group" were sent to exile in distant places. The 3rd stage covers the years 1936-1938. During the repressions of 1937-1938, a strong blow was inflicted on the national and spiritual wealth, culture, customs and Azerbaijani people's traditions.

**Keywords:** Azerbaijani People, Soviet State, 1937 Year, Repression, Genocide Policy

**Received Date: 06/04/2022** **Accepted Date: 21/09/2022**

---

* *Professor, ANAS A.A. Head of the history department of the Bakikhanov Institute of History of the Republic of Azerbaijan, Baki-Azerbaijan, emrahov48@mail.ru*

***You can refer to this article as follows:***
ƏMRAHOV, M., "1937-1938-ci il Repressiyalari Sovet Dövlətinin Azərbaycan Xalqına Qarşı Soyqırımı Siyasətinin Davamı", *Academic Journal of History and Idea,* Vol. 9, Issue 3, 2022, p.792-819.

# РЕПРЕССИИ 1937-1938 ГОДА ПРОДОЛЖЕНИЕ ПОЛИТИКИ ГЕНОЦИДА СОВЕТСКОГО ГОСУДАРСТВА ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

**Маис АМРАХОВ***
**ORCİD: 0000-0003-2504-3034**

**Резюме**

Статья посвящена раскрытию сущности геноцидной политики советского государства в отношении азербайджанского народа в 20-е и 30-е годы XX века. Отмечается, что Советская Россия, отказывающаяся признать АДР, различными способами оказывает давление на азербайджанское правительство, имеющее большое влияние на Южном Кавказе, налаживает отношения с различными партиями для нарушения внутренней стабильности, а в целях захватить Бакинский нефтяной район, руководитель Советской России В.И. Ленин при поддержке Сталина, Микояна, Кирова и Орджоникидзе готовил планы. В статье использованы ценные факты, о массовых репрессиях осуществленных в Азербайджане в 1920-х и 1930-х годах. Таким образом, советское правительство в 3 этапа проводило политику репрессий против азербайджанского народа. Первый этап – массовая отправка азербайджанской интеллигенции в лагеря для военнопленных, созданные Лениным и Троцким. Этот этап длился начиная от апрельской оккупации до конца 20-х гг. Вторая стадия относится к концу 20-х – началу 30-х годов. На этом этапе проводились массовые аресты, под видом враги советской власти, участники бандформирований отправляли в ссылку в отдаленные места. Третий этап охватывает 1936-1938 годы. В ходе репрессий 1937-1938 годов был нанесен сильный урон по национальному и духовному богатству, культуре, обычаям и традициям азербайджанского народа.

**Ключевые слова:** Азербайджанский народ, советское государство, 1937 год, репрессия, политика геноцида

**Получено: 06/04/2022** **Принято: 21/09/2022**

---

**Профессор, НАНА А.А. Заведующий отделом истории Бакихановского института истории Азербайджанской Республики, Бки-Азербайджан, emrahov48@mail.ru*
ƏMRAHOV, M., “1937-1938-ci il Repressiyalari Sovet Dövlətinin Azərbaycan Xalqına Qarşı Soyqırımı Siyasətinin Davamı”, *академическая история и мысль*, T.9, NO.3, 2022, c.792-819.

**Giriş**

1918-ci ilin mayında elan edilən Azərbaycan Xalq Cümhuriyyəti (AXC) cəmi 23 ay yaşadı. AXC-ni tanımaqdan imtina edən Sovet Rusiyası müxtəlif üsullarla Cənubi Qafqazda böyük nüfuza sahib Azərbaycan hökumətinə təzyiq göstərir, daxili sabitliyi pozmaq üçün müxtəlif partiyalarla əlaqə yaradırdı. Şimali Azərbaycanı və ilk növbədə Bakı neft rayonunu ələ keçirmək üçün Sover Rusiyasının rəhbəri V.İ. Lenin, İ. Stalin, A. Mikoyan, S. Kirov və S.Orconikidzenin vasitəsilə planlar hazırlayırdı. Bu planda əsas yeri Azərbaycanı Türkiyədən uzaqlaşdırmaq, azərbaycanlı bolşevikləri öz tərəfinə çəkmək, milli şüuru tam yetişməyən kütlələri ələ almaq xüsusi yer tuturdu. Bunun üçün onlar dəridən qabıqdan çıxır, „Müsavat"ın simasında düşmən obrazı yaratmağa çalışırdılar.Yeni yaradılmış müstəqil Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlərdən qorxuya düşən Orconikidze 1918-ci il oktyabrın 12-də V.İ.Leninə göndərdiyi teleqramda yazırdı: Azərbaycan Respublikasının hökuməti başda Xan Xoyski olmaqla yalnız mülkədarlardan ibarətdir.[1]

Qafqaz İslam Ordusunun hərbi hissələrinin Azərbaycan xalqının köməyinə gəlməsi, daşnak hissələrinin ölkə ərazisindən qovulması Sovet Rusiyasını və onun Azərbaycandakı emissarlarını narahat edirdi. Sovet Rusiyası hökumətinin Moskvadakı emissarları, o cümlədən mətbuat orqanları Azərbaycan Xalq Gümhuriyyətinə qarşı təxribat xarakterli yazılar dərc edir, türkləri əhalinin gözündən salmağa cəhd göstərirdilər.

Azərbaycan Xalq Gümhuriyyətinin müstəqilliyini görmək istəməyənlərin önündə İ.Stalin, A.Mikoyan, S.Kirov və S.Orconikidze gedirdi. 1919-cu il mayın əvvəlində A.Mikoyanın rəhbərliyi ilə keçirilən Ümumbakı partiya konfransı *Müstəqil Sovet Azərbaycanı* şüarını Azərbaycan kommunist təşkilatlarının növbəti vəzifəsi kimi qəbul etdi.[2] 1919-cu il mayın 22-də Mikoyan Rusiya K(b)P MK-ya və V.İ.Leninə yazırdı: *Bakı təşkilatı ölkə komitəsi ilə birlikdə Azərbaycanda hakimiyyətin ələ alınmasını partiyanın növbəti vəzifəsi kimi qarşıya qoyur.*



*Anastas Mikoyan (solda),*
*İosif Stalin (ortada),*
*Qriqori (Serqo)*
*Orconikidze (sağda)*

[1]Q.K. Orconikidze, *Məqalələr və nitqləri,* C.1, Bakı 1956, s.45.

[2]*Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri*, Bakı 1964, s.325.

*Bunun üçün geniş siyasi və hərbi hazırlıq görürük. Artıq Azərbaycanın müxtəlif guşələrində dayaq bazalarımız vardır. Burada bizim yoldaşlar çalışır və rəhbərlik edirlər.*[3]

Azərbaycan Xalq Cümhuriyyətinin düşməni olan Sovet Rusiyasının rəhbərliyi fitnəkar hərəkətlərini davam etdirirdi. S. Kirov 1919-cu il iyulun əvvəllərində Rusiya K(b)P MK-ya göndərdiyi məktubunda yazırdı: *Məlumat üçün bildirirəm ki, mən bu müddətdə, yəni Bakı ilə əlaqə yaradılandan bəri oraya bərabər hissələrlə 4 milyon manat pul göndərmişəm. Amma qorxuram ki, bu pulun iki həftə bundan əvvəl göndərilən axırıncı milyon manatı muğanlıların əlinə keçsin. Çünki burada dünən məlum oldu ki, Muğanda çevriliş baş vermişdir.*[4] milyonmanatın qanuni hökuməti yıxmaq üçün sərfiməlumdur. Təəccüblü odur ki, S.Kirov „budəfə əzabkeş erməniləri yaddan çıxamış, onlara vəsait göndərməmişdi. Sovet Rusiyası hökuməti maliyyə yardımı ilə bərabər Azərbaycan Xalq Cümhuriyyəti ərazisinə silah göndərir və bu silahlar qiyamçı əhvali-ruhiyyəli qeyri-azərbaycanlılara paylanırdı. Türküstan cəbhəsindən Bakıya gizli olaraq 8 min nəfər üçün silah və hərbi sursat, Həştərxandan 1.600 tüfəng, 17 pulemyot göndərilmişdi. Artıq 1920-ci ilin yanvarında S.Kirov Rusiya K(b)P MK-ya bildirirdi ki, *Bakılı yoldaşlar güclü surətdə silahlanmaqla məşğuldurlar və işin müvəffəqiyyətlə qurtaracağına ümid bəsləyərək çıxışa hazırlaşırlar.*[5]

1920-ci ilin martında XI Qırmızı Ordu hissələri Dərbəndə toplaşaraq üsyana hazırlaşanda V.İ.Lenin Orconikidzeyə göndərdiyi 17 mart tarixli teleqramda tələb edirdi ki, *Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin. Qüvvələr yeridilməsi haqqında baş komandanlıqla şərtləşi.*[6] Ümumiyyətlə, S.M.Kirov, Mikoyan və S.Orconikidze Azərbaycanın müstəqilliyinə qarşı çıxaraq *Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtını Gəncəyə köçürmək, Bakını Ümumrusiya mərkəzi kimi RSFSR-ə tabe etmək təklifini irəli sürmüşdülər.* Bakı partiya təşkilatının bir qrup rəhbər işçisi - *Sarkis Danilyan, A.Mikoyan, S.Mirzoyan, S.Tutin, M.Kaxiani, V.Yeqorov* və başqaları S.M.Kirov, Mikoyan və S.Orcon ikidze üçlüyünü müdafiə edirdi.

1920-ci il aprelin 23-də Qafqaz cəbhəsinin komandanı Tuxaçevski və İnqilabi Hərbi Şuranın üzvü Orconikidze xüsusi əmr vermişdi: XI Ordunun son vəzifəsi Bakı quberniyasını deyil, bütün Azərbaycan ərazisini tutmaqdır.[7]

---

[3]*Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə, 1918-1920, Sənədlər və materiallar,* Bakı 1967, s. 138.

[4]*Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə, 1918-1920, a.g.e.,* s.94.

[5]*Azərbaycan tarixi,* C.3, h.1, Bakı 1964, s.12.

[6]*Mir Cəfər Bağırovun məhkəməsi* (Arxiv materialları), Bakı 1993, s.430.

[7] internatsional'naya pomoshch XI Armii v bor'be za pobedu Sovetskoy vlasti v Azerbaydzhane. Dokumenty i materialy, 1920-1921 gg, Baku 1989, s.19.

1920-ci il aprelin 27-də saat 10:25-də 61 №li III İnternasional və 209 №li Qırmızı Həştərxan zirehli qatarları, gəmi topları ilə təchiz olunmuş 5 №li Qırmızı Dağıstan və 65 №li Timofey Ulyantsev adlı zirehli qatarlar Şimali Azərbaycana doğru hərəkət etdilər. Bakını ələ keçirən bolşeviklər ölkəni qarət etməyə başladılar. I Dünya müharibəsi dövründə Bakıda yığılıb qalmış 5 milyon ton yüksək keyfiyyətli neft Bakı işğal ediləndən sonra V.Leninin əmri ilə 40 gün ərzində Sovet Rusiyasına göndərildi. Bu qarət aksiyasına görə „Azneft"in rəisi A.Serebovski Qırmızı Bayraq ordeni ilə təltif olundu.[8]

**1-İşğaldan sonrakı sovetlər:reallıqlar və acı nəticələr**

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyası işğalçıları tərəfindən hərbi güc tətbiq edilərək devrildi. 1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR) yaradıldı. Bu Azərbaycan xalqının milli dövlətçilik idarəetmə sistemi deyildi. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 113.895,97 kv.km idi. AXC-nin ərazilərinin 16 min kv.km mübahisəli ərazilər sayılırdı. AXC elan ediləndə mübahisəli ərazilərlə birlikdə əhalisi 2 milyon 861 min 862 nəfər idi. 1920-ci ilin payızında Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklərlə əlbir olan ermənilər Azərbaycana qarşı ərazi iddialarına başladılar. Sovet Rusiyası Azərbaycan SSR-ə məxsus tarixi ərazilər - Zəngəzurda 123 min 95 nəfər azərbaycanlının, 99 min 257 nəfər ermənin yaşamasına baxmayaraq, 1921-ci il iyulun 1-dən 1929-cu il fevralın 29-dək olan müddətdə Zəngəzur qəzasının qərb hissəsi Ermənistana verildi. Nəticədə Azərbaycan SSR-in Naxçıvan bölgəsi ilə, Türkiyənin isə türk dünyası ilə quru əlaqəsi kəsildi. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinə məxsus 113.895, 97 kv.km ərazidən sovet dövründə yalnız 86,6 min kv.km qaldı. Çünki, Sovet Rusiyasının və SSRİ dövlətinin təzyiqi ilə Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq 1921-1929-cu illərdə 20,8 min kvadrat kilometr ərazi Ermənistan SSR tərkibinə verildi.

Bolşeviklərin Rusiyada hərbi çevriliş yolu ilə hakimiyyəti ələ keçirməsindən sonra, xüsusilə 1920-1922-ci illərdə erməni liderlərinin antitürk, antimüsəlman fəaliyyəti V.İ.Leninə məlum olsa da, əsaslı bir tədbir görülmədi, əksinə rus liderlərinin köməyi ilə Azərbaycan SSR-də hakimiyyət strukturlarında vəzifələri ələ keçirən ermənilər yüzlərlə Azərbaycan ziyalısının qətlə yetirilməsinə, həbs olunmasına, yerli hakimiyyət orqanlarının fəaliyyətinin məhdudlaşdırılmasına nail oldular.

Azərbaycan Xalq Cümhuriyyətinin liderləri, görkəmli nümayəndələri, ictimai təşkilatların, siyasi partiyaların rəhbərləri, hərbçilər həbs edildilər. Onların bir çoxu Nargin adasında güllələndi, Slovetks adalarına, Suzdala, Novqoroda və b. yerlərə həbs düşərgələrinə

[8]Sultanov Sapay, *Bakı nefti dünya şahmat taxtasında 1939-1945-ci illər (Rus dilindən tərcümə),* Bakı 2016, s.103.

göndərildilər. Əlbəttə, bütün bunlar Azərbaycan İnqilab Komitəsinin icazəsi olmadan rus şovinistləri və erməni daşnaklarının başçılıq etdiyi XI Qızıl Ordunun Xüsusi Şöbəsi tərəfindən həyata keçirilirdi. Daşnak terrorçuları 1920-1921-ci illərdə *F.Xoyskini və H.Ağayevi* Tiflisdə, *Behbudağa Cavanşiri* Malta adasında qətlə yetirdilər. General *Süleyman Sulkeviç*, hökumət üzvləri *X. Rəfibəyov, İ. Ziyadxanov*, alim və pedaqoq *F. Köçərli*, professor *Zimin* və başqaları həlak oldular. Azərbaycan hökumətinin başçılarından biri, ADR-in II Baş naziri N.Yusifbəyli müəmmalı şəkildə yoxa çıxdı. Ə. Qarayev ictimaiyyəti aldadaraq, onun 98 milyon manatla Bakı dəmiryol vağzalında həbs edildiyini bildirdi. Lakin Baş nazir Kürdəmirdə Fövqəladə Komissiya əməkdaşlarının fitvası ilə xüsusi qəddarlıqla öldürülmüşdü. Bu qanlı hadisənin şahidi Nəsib bəyin rus sürücüsü Türkiyəyə qaça bildi. Sonralar o, hadisəni N.Yusifbəylinin həyat yoldaşı Şəfiqə Sultan xanıma danışaraq, mərhumun cənazəsi dəfn olunan yeri də nişan verdi. Gəncə sakinləri Nəsib bəyin çöllükdəki məzarını hökumətdən xəbərsiz, xəlvəti Gəncəyə köçürdülər.[9]

M.Ə.Rəsulzadə bir zamanlar (1907-ci ildə) ölümdən xilas etdiyi İ.Stalin tərəfindən həbsdən azad edildi və Moskvaya işə dəvət olundu. Sonralar M.Ə.Rəsulzadə Finlandiyaya, sonraTürkiyəyə mühacirət etdi. ADR-in və Azərbaycan ziyalılarının bir çox görkəmli xadimləri *Ə.M.Topçubaşov, Ə. Ağayev, A. Şeyxülislamov, C.Hacıbəyli, M.B. Məmmədzadə, Mustafa Vəkilov, Mirzə Əsədullayev, Əbdüləli bəy Əmircan* və başqaları mühacirətdə olduqları üçün faciədən uzaqda qaldılar, vətəndən kənarda dünyalarını dəyişdilər.

Sovet hakimiyyəti yeni quruluşdan narazı olanları, milli müstəqillik uğrunda mübarizə aparanları, siyasi təşkilatların və cərəyanların liderlərini, ziyalılar təqib edir, onları saxta ittihamlarla günahlandırır və cəzalandırırdı.1920-ci il aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 min adam qırmızı terrorun qurbanı oldu.[10]

Moskva kral Serebrovskini Azneftə rəhbər təyin etməklə Bakı neftinin Rusiyaya daşınmasını təmin edirdi. Nəticədə 1920-ci ildə Azərbaycandan Rusiyaya 4 milyon ton neft aparıldı. O zaman bir barel neftin qiymətinin 18 dollar olduğunu nəzərə alsaq, bu 452,8 milyon dollar təşkil edir. 1920-1924-cü illərdə Azərbaycandan çıxarılan neftin dəyəri 1,87 milyard dollar təşkil etmişdir.Sovet hakimiyyətinin ilk on beş günü ərzində (30 aprel-16 may) Bakıdan Həştərxana 3760450 put mazut, 119840 put neft, 260400 put kerosin, 52775 put maşın yağı,

---

[9]X. İbrahimli, *Azərbaycan mühacirəti tarixi,* Bakı 2012, s.47.

[10]Zeynalov R. Voyennoye stroitel'stvo-voyenno-patrioticheskaya i oboronno-massovaya rabota v Azerbaydzhanskoy SSR v period stroitel'stva sotsializma (1920 — iyun' 1941 g.), Baku1990, s.19.

Petrovska 67533 pur mazut, 112803 put neft, 283579 pur kerosin, 31552 pur maşın yağı, 3257 put slindr yağı- cəmi 5.301.122 put göndərildi.[11]

Sovetlərə qarşı silahlı müqavimət, 27 aprel hadisələrindən sonra Azərbaycan xalqı bolşevik rejimi ilə razılaşmadı. Yeni-yeni gizli siyasi təşkilatlar yarandı. Ayrı-ayrı qəzetlərdə dərc olunan bəyannamələr sovet idarələrini qorxuya salmağa başladı.Azərbaycanın bolşeviklər tərəfindən işğalına qarşı müqavimət hərəkatı getdikcə gücləndi. Yeni hökumətə qarşı Bakıda, Qarabağda üsyanlar başladı. Qarabağdakı üsyançılara özünü Qarabağ hakimi elan etmiş türk generalı Nuru paşa rəhbərlik edirdi. Üsyançılara Nuxa (Şəki), Cavanşir, Ağdam atlı dəstələri, Bakı alayı və 2 topçu dəstəsi kömək edirdilər.

Cavanşir qəzası üsyançılarının Şuşadakı üsyan mərkəzi ilə sıx əlaqəsi vardı. Şuşada Qarabağ II bölgə ordularının keçmiş komandiri Zeynalov, onun köməkçisi Əli Fasyab Ağalarbəyov türk generalı Nuru paşanın rəhbərliyində olan yerli inqilab komitəsini, Azərbaycan K(b)P Mərkəzi Komitəsinin və partiyanın digər nümayəndələrini həbs etdikdən sonra Xankəndi üzərindən Ağdam və Yevlaxda yerləşən 28-ci rus dəstələrinə hücum etdilər. Hücumda Qarabağ atlı alayı, Zaqatala və Cavanşir birlikləri, ayrıca topçu dəstələri iştirak edirdilər.

Gəncə hadisələrinin nəticələrini öyrənmək üçün Bərdədən Yevlax istiqamətində hərəkət edən Ehsan xan Naxçıvanski dəstəsindəki Nuxa (Şəki) alayı ilə Qızıl Ordu hissələri arasında baş verən döyüşlər nəticəsində Ehsan xan və onu təqib edən bir qrup əsgər XI Ordu hissələri tərəfindən yaxalandı və onlar güllələndilər. Qızıl Ordunun mühasirəsini yaran 32 üsyançı döyüşə-döyüşə Bərdəyə girməyi müvəffəq oldu. 32-lər dastanı kimi məşhur olan döyüşlər bir həftə boyunca davam etdi.[12] *Yevlax nahiyəsində, Cavanşir qəzasında, Tərtərdə, Gəncədə, Qəbələdə, Şəmkirin Müsgürlü kəndində, Qubada, Muğanda, Lənkəranda və Astarada, Lerik və Şamaxıda, Göyçayda, Nuxada və Zaqatala bölgəsində üsyanlar* amansızlıqla yatırıldı. Ümumilikdə, 1920-1923-cü illərdə XI Ordunun istilaçılıq hərəkətlərinə qarşı 53 silahlı üsyan baş vermişdir.

Azərbaycan, onun ürəyi olan Bakı haqqında formalaşan mənfi fikirlərin ən dəhşətlisi Bakını Azərbaycandan ayırmaq təşəbbüsü, onu Rusiya imperiyasının ərazisi elan olunması cəhd-ləri idi. Əslində bu siyasətin kökündə daşnak-erməni xülyası dayanırdı. Daşnaklar mərkəzdə nüfuzlu vəzifələri tutan həmvətənlərinin və dindaşlarının köməyi ilə Azərbaycan ərazisini ələ

[11]Bol'shoy terror i sud'by azerbaydzhanskoy nauchnoy intelligentsii (30-ye gody KHKH stoletiya), XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları IV Beynəlxalq elmi konfransın materialları, 22-27 aprel 2017-ci il Azərbaycan Respublikası, Lənkaran şəhəri, Xüsusi buraxılış, 2017, № 64 65, 66, s.437.

[12]Mirza Bala, *Otuz ikilerin dastanı*, Kurtuluş, 1935, № 9, s.59.

keçirmək istəyirdilər. *Bakının və mədən rayonlarının rəsmi sənədlərdə Rusiyanın ərazisi kimi göstərilməsi də bu siyasətin tərkib hissəsi idi.*

1920-ci il 27 aprel işğalından sonra Azərbaycanda Kommunist Partiyasından başqa heç bir partiyanın leqal fəaliyyətinə imkan verilmədi. Sosialist fraksiyasına daxil olan xalqçı sosialist firqəsi də bolşevik platformasını qəbul edərək üzvlərini məsul vəzifələrə yerləşdirə bildi. Lakin, fəal xalqçılardan Aslan Səfikürdski, Rza Qaraşarlı, Cəmo Hacınski, Rza Şabanov, Kərim Feyzullayev, Xankişi Şahverdiyev və digər 26 nəfər 1922-ci ilin sonlarında Azərbaycan SSR Ali İnqilabi Tribunalının *eser partiyasının Zaqafqaziya təşkilatının işi* adlı qondarma ittihamla mühakimə olunub müxtəlif müddətli həbs cəzaları aldılar.[13]

Sovet quruluşuna qarşı mübarizədə ziyalılar və gənclər önəmli rol oynayırdılar. Gənclərinyaratdığı təşkilatlardan biri də 1927-ci ilin yayında yaranan Gənc Azər təşkilatı idi. Onun yaradıcıları Həsənağa Axundzadə, Haşım Aslanov, Əliağa Aslanov idi. Gənc Azərin əsas məqsədi Gənc kadrlar-müsavatçılar hazırlamaq, sovet hakimiyyətinin devrilməsinə yardım etmək, vəzifələri isə a) Müsavatla əlaqə yaratmaq; b) gəncləri təşkilata cəlb etmək; v) Azərbaycanda millətçilik təbliğatı aparmaq idi.[14]

Bakı şəhər 5 saylı məktəbin müəllimi Əli Abbas Talıbovun rəhbərlik etdiyi Türkçülər adlı tələbə təşkilatının üzvləri isə əsasən pedaqoji institutun yuxarı kurs tələbələri olub, orta məktəblərdə dərs aparırdılar. Türkçülər təşkilatında müsavatçı Təhsin Nuriyev və Mikayıl Müşfiq də təmsil olunurdular. Onlar Əhməd Cavadın inqilabi əhval-ruhiyyəli şerlərinin oxusunu təşkil edir, müstəqillik və türkçülük ideyalarının zəiflədilməməsinə çalışırdılar. Bu sahədə Tibb İnstitutunun dosenti Balakişiyev Kamil (o, Az.DSİ-yə verdiyi ifadədə İzçi adlı başqa bir gizli təşkilatın da üzvü olduğunu bildirib), 30-cu illərdə yaradıcılığının çiçəklənmə dövrünü yaşayan M.Müşfiq xüsusilə fərqlənirdi.[15]

Sovet hakimiyyət orqanları 1928-ci ilin dekabr və 1929-cu ilin yanvar ayında təşkilatın 7 üzvü həbs etdi. Nəticədə təşkilat fəaliyyətini dayandırmalı oldu.

*Sovetlər onlara qarşı çıxınları ən sərt cəza növünə-sürgünə göndərilməyi tətbiq edirdi.* Sürgün edilənlərin əmlakı müsadirə olunurdu. 1926-cı il məlumatına görə, Azərbaycanda 45 böyük kapitalist, 1927-ci ilin əvvəlində daha 27 kapitalist sürgün edilmişdi. Sürgün yerinin ünvanı Ukrayna idi. Azərbaycan daxilində isə onlar əsasən Şamaxı, Nuxa və Qazax bölgələrinə sürgün edilirdilər.

---

[13]6, fond 1- Mərkəzi Komitə (MK), siyahı 85, iş 462, v 277.

[14]B. Rəfiyev, *Gənc Azər*, Bakı 1991, s.18.

[15]X. İbrahimli, *a.g.e.,* s.98.

1924-cü ildə Azərbaycan XKS-n-n strukturlarında 69 min nəfər işləyirdi. Onlardan 19.541 nəfəri (29%) azərbaycanlılar, 11.408 nəfəri (17 %) ruslar, 2.306 nəfəri (6 %) ermənilər, 6.541nəfəri (9%) yəhudilər idi. Fövqəladə Komissiyada azərbaycanlılar 68, ruslar 191, ermənilər 77, digər millətlər 51 nəfər idi (34a,s.72). Bu rəqəmləri bəzi opponentlər əhalinin sasvadsızlığı ilə əlaqələndirsələr də, sovetlərin özlərinin səsləndirdiyi rəqəmlər əksini gösstərirdi. Rəqəmlərə baxaq: 1922/23-cü illərdə Bakı və onun ətrafında 257 savadsızlığı ləğvetmə məktəbləri vardı. 5 il ərzində (1920-1925-ci illər) təhsil kursuni bitirmiş 103 min nəfərdən 63 min nəfəri azərbaycanlı idi.

Sovet hökuməti Azərbaycanda kolxoz və sovxozların təbliğini uğurla həyata keçirirdi. 20-ci illərində sonunda sosial proseslər kənddə kapitalist münasibətlərinin möhkəmlənməsinə şərait yaradırdı. Əgər 1930-cu ildə ölkədə 1.839 kolxoz vardısa, 1931-ci ildə onların sayı 3.300 idi.

Kütləvi kollektivləşmə respublikada dövlətin maraqlarına uyğun olaraq yeni ictimai struktur yaradırdı. Kollektivləşmə qolçomaqların bir sinif kimi ləğvinə çalışır, əslində isə repressiv metodlarla aparırdı. Əslində isə vəziyyət heç də sovet hökumətinin xalqa təqdim etdiyi kimi deyildi. Araşdırmalardan aydın olur ki, kəndlərdə kulakların sayı 35-dən çox deyildi. 1929-1930-cu illərdə respublikada 7.586 (2,3%) kulaq həyəti vardı. 1930-1931-ci illərdə onların sayı 3.802 (1,1%), 1932-1933-cü illərdə isə 280 həyətə enmişdi. Bu rəqəmlər onu göstərir ki, repressiya nəticəsində kulak təsərrüfatları və kulaklar məhv edilmişdi.[16] Həbslər, güllələnmələr, köçürmələr, sürgünlər qanunsuz aparılırdı. Bu hallara dair N.Nərimanov dəfələrlə yuxarı orqanlara, RK(b)P MK-ya, hətta V.Leninə müraciətlər etmişdi. RK(b)P-nin XV qurultayında (1927-ci il) S.Orconikidze çıxışında ölkədə qanunun pozulduğunu etraf edərək, vətəndaşların əsassız həbs olunduğunu bildirmişdi. O, statistikaya müraciət edərək demişdi: *1926-cı ildə RSFSR xalq məhkəmələrində 1.427.776 cinayət işinə baxılmışdır. 1.906.791 adam məsuliyyətə cəlb olunmuşdur, 25,4 % mühakimə olunan bəraət almışdır.*[17]

Məlumdur ki, SSRİ-nin bütün ərazilərində, o cümlədən Azərbaycanda Fövqəladə Üçlük fəaliyyət göstərirdi. Üçlüyün fəaliyyətində qanunsuzluq, günahslız insanların ölüm hökmü ilə məhvi əsas yer tuturdu. Üçlükdə Qalstyan, Sarkisyan, Petrosyan kimi cəlladların qəbul etdikləri qərarlar heç bir qanuna əsaslanmırdı. Araşdırmalara əsasən deyə bilərik ki, onlar 14 yaşından 94 yaşına kimi insanları məhv etmişlər. Erməni üçlüyü qanunsuz olaraq məqsədyönlü şəkildə dinc respublika əhalisini, partiya liderlərini məhv edirdi. Bunun üçün Fövqəladə Üçlüyün protokollarına baxmaq kifayətdir. Faktlara müraciət edək. 1930-cu il centyabrın 22-dən

---

[16]A. Rakhmanova, *Memorial Vospominaniya, razmyshleniya,* dokumental'nyye svidetel'stva, Sankt-Peterburq 2016, s.74-75.

[17]A. Rakhmanova, *a.g.e.,* s.76.

oktyabrın 30-dək - 20 gün ərzində Naxçıvan MSSR-in Fövqəladə Üçlüyü Keçili kəndində 1930-cu il sentyabrın 22-də silahlı üsyanda iştirak, antisovet təbliğatı və quldurlara kömək etdiyi üçün əmlakı müsadirə olunmaqla 7 nəfəri güllələnməyə məhkum etmişdi. Yenə həmin gündə Şahbuz kəndində 4 nəfər, sentyabrın 23-də Naxçıvan şəhərində 5 nəfər, Şahbuz kəndində 2 nəfər, sentyabrın 29-da Naxçıvan şəhərində 25 nəfər, oktyabrın 1-də Naxçıvanda 12 nəfər, oktyabrın 3-də Baş Noraşendə 4 nəfər, oktyabrın 4-də Naxçıvan şəhərində 14 nəfər, oktyabrın 12-də yenə Naxçıvanda 9 nəfər əmlakı müsadirə olunmaqla güllələnmişdi.[18]

Göstərilən rəqəmlər yalnız bir regionda 20 gündə törədilən qanunsuzluğa nümunədir. Görünür erməni üşlüyü yaranmış vəziyyətdən yararlanaraq azərbaycanlıların məhv edilməsinə fürsət hesab edirdi. Qanunsuzluğun hədsiz pozulması səbəbindən repressiyalar məhkəmələrdə deyil, şöbələrdə, kabinetlərdə araşdırılır, lazım olmayan materialların məhvi unudulurdu. Bu səbəbdən də arxiv materiallarının əksəriyyətində erməni izi qalmaqdadır. Maraqlı orasıdır ki, L.Kaqanoviçin təklifi ilə ölüm hökmü məhkəmə istintaqının sanksiyası olmadan həyata keçirilirdi. V.Molotov L.Kaqanoviçdən irəli gedərək onun metodunu təkmilləşdirməyi qərar alır, repressiyaları siyahılar üzrə aparılmasını silahdaşlarına üçlüyün, ikiliyin komissiyasının yaradılmasını təklif edir.

1929-cu ilin yanvar-sentyabr aylarında müsavatçıların tutulması tədbirlərində 1.142 nəfər günahkar bilinmişdir. Onların 666 nəfəri Bakı, 237 nəfəri Lənkəran, 122 nəfəri Gəncə və 217 nəfəri digər yerlərdə fəaliyyət göstərənlər idi. Həmin tarixlərdə Slovetski həbs düşərgələrinə 500 müsavatçı sürgün edilmişdir. Ümumilikdə, Qafqazdan Urala 20.000, Qazaxıstana 5.000 nəfər sürgün olunmuşdur.

Müsavatçılarla yanaşı *ittihadçılar* da həbs olunurdular. Həbs olunan 474 ittihadçının 135 nəfəri Qarabağ, 115 nəfəri Bakı, 60 nəfəri Gəncə, 60 nəfəri Lənkəran, 17 nəfəri Zaqatala-Nuxa, 25 nəfəri Şirvandan və digər yerlərdən idi.

Azərbaycanda kütləvi və fərdi terror əsasən ordu və ona tabe olan təşkilatlat tərəfindən törədilirdi. İnqilabi Tribunal, Fövqəladə Komissiya (ÇK), XI Ordunun Xüsusi Şöbəsi birbaşa ordu komandanlığına və Moskvaya tabe idi. Ona görə də Azərbaycan hökuməti, demək olar ki, hakimiyyətin ilk aylarında bu təşkilatın fəaliyyətinə nəzarət edə bilmirdi. AXC-nin Tiflisdəki hərbi atteşesi Ələsgər Əsgərov Azərbaycan faciəsi memuarında yazır ki, 1921-ci ilədək ancaq hərbşilərdən müsəlman 12 general, 27 polkovnik və podpolkovnik, 46 kapitan, ştabskapitan, poruçik və podporuçik, 146 praporşik, 266 nəfər başqa işçilər güllələndi. Bunlardan Sulkeviç, İ.Usubov, Həşımbəyov, şahzadələr İmanulla Qacar və Kazım Mirzə Qacar, Həmid bəy

[18]Z. Bünyadov, *Qırmızı terror,* Bakı 1993, s.21.

Qaytabaşı, Həbib bəy Səlimov, S.Girey Tilexas (Dəlixas), Makayev, Rüstəm bəy Şıxlinski, Əliyev, İskəndər bəy Seyfullin və b. tanınmış hərbçilər vardı.

**2-1930-1936-cı illər repressiyaları**

1920-1930-cu illərdə Azərbaycanda 3 dəfə kütləvi repressiya aparılmışdır. Bunun birinci mərhələsi Lenin və Trotski tərəfindən yaradılan həbs düşərgələrinə Azərbaycan ziyalılarının kütləvi göndərilməsidir. Bu mərhələ aprel işğalından 20-ci illərin sonunadək davam etmişdir. 2-ci mərhələ 20-ci illərin sonu 30-cu illərin əvvələrinə aiddir. Bu mərhələdə qolçomaq adı altında kütləvi həbslər həyata keçirilmiş, sovet hakimiyyətinin düşmənləri, quldur qrupunun üzvləri uzaq yerlərə sürgünə göndərilmişdilər. 3-cü mərhələ 1936-1938-ci illəri əhatə edir.

1934-cü il dekabrın 1-də Leninqradda yerləşən Smolnı sarayında işsiz Leonid Nikolayev ÜK(b)P-nın Leninqrad Diyar Komitəsinin rəhbəri Sergey Kirovu güllələdi. Bu qətl hadisəsi 1920-1930-cu illərin müxalif liderlərinin aradan götürülməsi üçün istifadə olundu. Stalin qətldə Qriqori Zinovyev və Lev Kamenevi günahlandırdı. XDİK-dan olan etirazlara baxmayaraq o bu qətldə Zinovyev izi"nin araşdırılmasına göstəriş verdi.[19]

1936-cı ilin yazında Bakıda humanitar elmlər sahəsində işləyən bir qrup keçmiş trotskiçilər həbs olundular. Sonra isə millətçilər həbslərə məruz qaldılar. İlk olaraq o dövrdə respublika rəhbəri olan Mircəfər Bağırovla düşmən münasibətlərində olan alban əsilli



publisist Əhməd Triniç həbs olundu. Bağırov həmin ilin aprelində Azərbaycan K(b)P Mərkəzi Komitəsinin Bürosunun iclasında 1918-ci ildə guya ki, Triniçin Müsavat parlamentinin müdafiəsi üçün etdiyi xahişi özündəəks etdirən tapılmış və ya uydurulmuş məktubuoxudu. Nəticədə Triniçi partiyadakənarlaşdırıhəbsetdilər, istintaqzamanı isə o*düymə udaraq özünü öldürdü.* Ancaq Azərbaycandaki ilk güclü həbslər dalğası payızda baş verdi və əsasən bolşevik partiyası daxilindəki müxaliflərə neobolşevik partiyalarının üzvlərinə vəStalinhakimiyyətinə qeyri-loyal münasibətdə şübhəli bilinən şəxslərə toxundu.[20]

1937-ci il iyulun 2-də ÜK(b)P MK-nın Siyasi Bürosu antisovet elementləri barədə P51/94 saylı qərar qəbul etdi.

---

[19]E. Ismailov, "Sovetskiy gosudarstvennyy terrorizm v Azerbaydzhane" (rus). ca-c.org(12.12.2021).

[20]D. Nadzhafov, *Kak Azerbaydzhan perezhil bol'shoy terror*, Interv'yu s uchenym-istorikom El'darom Ismaylovym, 1news.az, 9 avqust 2007.



ШИФРОМ

СЕКРЕТАРЯМ ОБКОМОВ, КРАЙКОМОВ И ЦК НАЦКОМПАРТИЙ

Замечено, что большая часть бывших кулаков и уголовников, высланных одно время из разных областей в северные и сибирские районы, а потом по истечении срока высылки, вернувшихся в свои области, - являются главными зачинщиками всякого рода антисоветских и диверсионных преступлений, как в колхозах и совхозах, так и на транспорте и в некоторых отраслях промышленности.

ЦК ВКП(б) предлагает всем секретарям областных и краевых организаций и всем областным, краевым и республиканским представителям НКВД взять на учет всех возвратившихся на родину кулаков и уголовников, с тем, чтобы наиболее враждебные из них были немедленно арестованы и были расстреляны в порядке административного проведения их дел через тройки, а остальные менее активные, но все же враждебные элементы были бы переписаны и высланы в районы по указанию НКВД.

ЦК ВКП(б) предлагает в пятидневный срок представить в ЦК состав троек, а также количество подлежащих расстрелу, равно как и количество подлежащих высылке.

СЕКРЕТАРЬ ЦК СТАЛИН

ÜİK(b)P MK-nin Siyasi Bürosunun antisovet elementləri barədə P51/94 saylı qərarında deyilirdi:

*Vilayət, diyar komitələrinin və respublikaların kommunist partiyalarının Mərkəzi Komitə katiblərinə.Müşahidə edilib ki, vaxtilə ölkənin Şimal və Sibir rayonlarına sürgün edilmiş keçmiş qolçomaqlar və cinayətkarlar azad olduqdan sonra öz bölgələrinə qayıdıb bölgələrdəki kolxozlarda, sovxozlarda nəqliyyat və sənayənin digər sahələrində antisovet, diversiya cinayətlərinin əsas təhrik ediciləridilər. ÜİK(b)P MK bütün vilayət, diyar komitələrinin katiblərinə və bütün vilayət, diyar komitələrinin və respublikaların XDİK nümayəndələrinə təklif edir ki, öz doğma bölgələrinə geri qayıdan qolçomaqları və cinayətkarları onlardan ən çox düşmən mövqeyi sərgiləyənləri dərhal həbs edib inzibati qaydada işlərini „üçlük"lərə təqdim edib güllələnmələri üçün qeydiyyata alsınlar. Qalan düşmən mövqedə olub daha az aktivlik göstərənləri isə yenidən qeyd edib XDİK-nın göstərişi ilə digər bölgələrə sürgün etsinlər.*



СТРОГО СЕКРЕТНО

ПОДЛЕЖИТ ВОЗВРАТУ В 48 ЧАС.

ШИФРОВКА

Из БАКУ ... 1937 г. Поступила в ЦК ВКП

МОСКВА ЦК ВКП(б) тов. СТАЛИНУ.-

На № 863/ш. Прошу санкционировать изъятие 4-х тысяч человек: кулаков 1800 и уголовников 2200, из них первой категории кулаков 500 и уголовников 500, всего первой категории тысяча человек.

[illegible]

СЕКРЕТАРЬ ЦК АКП(б) БАГИРОВ.

**3-Mərkəzi Komitənin katibi Stalin[21]**

ÜİK(b)P MK təklif edir ki, beş gün müddətində „üçlük"lərin heyəti, eləcə də güllələnməli və sürgün edilməli şəxslərin sayı MK-ya təqdim edilsin. 1937-ci il iyulun 3-də iyul tarixində ÜKP(b) MK-nin Siyasi Bürosu bütün vilayət, diyar komitələrinin və respublikaların kommunist partiyalarının Mərkəzi Komitə katiblərinə teleqramlar yolladılar. İyulun 9-da Mircəfər Bağırov Moskvaya 4000 nəfərin (1800 qolçomağın, 2200 cinayətkarın) aradan götürülməsini sanksiyalaşdırması və onlar haqqında hansı tədbirlərin görülməsi barədə sual olan şifrəli teleqram yolladı. Şifrəli teleqramda həm də bir sıra cinayətkar qrupların üzvü olan şəxslərin ailə üzvlərinin də sürgün edilməsi və əhalinin digər qrupları haqqında olan işlərin də baxılması üçün XDİK üçlüklərinə həvalə edilməsi istənilirdi. M. C.Bağırov Azərbaycandaki üçlüyün heyətinə Yuvelian Sumbatov, Teymur Quliyev və Cahangir Axundzadənin təsdiq olunmasını təklif edirdi.[22]

Növbəti gün ÜKP(b) MK-nin Siyasi Bürosu tərəfindən üçlüklərin heyətinin müəyyən edilməsi, eləcə də repressiyaya məruz qalacaq şəxslərin say limiti ilə bağlı qətnamə çıxarıldı. Qətnamənin Azərbaycanla bağlı hissəsində yazılmışdı:

*Azərbaycan SSR üzrə üzvləri Yuvelian Sumbatov, Teymur Quliyev və Cahangir Axundzadədən ibarət üçlük təsdiqlənsin. Nəzərdə tutulmuş 500 qolçomağın, 500 cinayətkarın güllələnməsi və 1300 qolçomağın, 1700 cinayətkarın sürgün edilməsi təsdiq edilsin. Əksinqilabi üsyançı təşkilatların işlərinə, 750 nəfərin sürgün edilməsi, XDİK düşərgələrinə cinayətkar qrupların üzvü olan şəxslərin 150-nin ailəsinin sürgün edilməsi və 500 nəfərin güllələnməsini tətbiq etməklə üçlüklər tərəfindən baxılmasına icazə verilsin*".[23]

1937-ci il iyulun 14-də ÜİKP(b) MK-nin Siyasi Bürosu Şərq respublikalarının sərhəd xətti haqqında qərar verdi. Qərarda İran və Əfqanıstanla dövlət sərhəddinin mühafizəsini gücləndirmək məqsədilə bəzi respublikalarda sərhəd xətlərinin yaradılması nəzərdə tutulurdu. Buxəttə Azərbaycanda Naxçıvan MSSR-ninrayonları, Astara, Astraxanbazar, Biləsuvar, Cəbrayıl, Zəngilan, Zuvand, Qaradonlu, Qaryagin, Lənkəran və Masallı rayonları daxil oldular. Bütün bu rayonlardan etibarsız elementlərin sürgün edilməsi XDİK-na tapşırıldı. Sərhəd zonalarında xüsusi yaşayış və hərəkət rejimi müəyyən edildi, xarici vətəndaşların burada yerləşmələri isə ancaq SSRİ hökumətinin icazəsilə mümkün idi. SSRİ Xalq Xarici İşlər Komissarlığına İranla SSRİ arasında mövcud olan sərhədyanı bölgələrin sakinləri üçün

---

[21]M. Yunge, -G. Bordyugov,- R. Binner, Vertikal' bol'shogo terrora. Istoriya operatsii po prikazu NKVD №00447. M. 2008.s.71-72.

[22]Ye. Ismailov, Vlast' i narod, *Poslevoyennyy stalinizm v Azerbaydzhane*, 1945–1953, Bakı 2003, s.113.

[23] D. Nadzhafov, *a.g.e.*

sadələşdirilmiş sərhəd keçidi haqqında imzalanmış konvensiyanın ləğvi haqqında məlumat vermək tapşırıldı.

Üçlüklərin yaradılması ilə 1938-ci ilin payızına qədər Azərbaycandaki repressiyalar pik həddə çatdı. Milliyətindən asılı olmayaraq insanlar repressiyalara məruz qaldılar. Xatırladaq ki, 1936-1938-ci illərdə SSRİ Xalq Daxili İşlər komissarı olmuş Nikolay Yejov31 iyul 1937-ci ildə antisovet elementlərin məhvini qarşısında məqsəd qoyan və „operativ üçlüklərin üzvlərini müəyyən edən *Keçmiş qolçomaqların, cinayətkarların və digər antisovet elementlərin repressiyası əməliyyatı barədə* 00447 nömrəli operativ əmri imzaladı. NKVD üçlükləri SSRİ Daxili İşlər Komissarının 30 iyul 1937-ci ildə №00447 *Keçmiş qolçomaqların, cinayətkarların və digər antisovet elementlərin repressiyası əməliyyatı barədə* operativ əmrinə əsasən respublikalar üzrə XDİK rəhbərliyinin (diyar,vilayət), partiya katiblərinin(diyar,vilayət) və respublika prokurorlarının(bölgə,əyalət) rəhbərliyi ilə qurulurdu. Onlar güllələmə, həbs düşərgəsinə sürgün etmə və həbsxanada 8-10 il həbs cəzası vermək hüququna malik idilər.SSRİ XDİK yanında respublika, diyar və vilayət idarələrində „antisovet elementlərinin" repressiyası üçün əməliyyatların aparılması məqsədi ilə 1937-ci ilin avqust ayından 1938-ci ilin noyabrına qədər NKVD üçlükləri fəaliyyət göstərdi. NKVD üçlükləri inzibati (məhkəmədənkənar) orqan idi.

1937-ci ildə yalnız üçlük tərəfindən siyasi cinayətlərə görə 2792 nəfər güllələnməyə, 4425 nəfər uzunmüddətli azadlıqdan məhrumetmə cəzalarına məhkum edildi. Həminildə Azərbaycanda 57 zavod və istehsal müəssisələrinin direktoru, 95 mühəndis, 207 sovet və həmkarlar ittifaqı işçisi, 8 professor həbsə olundu. Demək olar ki onların hamısı məhv edildi.

Repressiyaya məruz qalanların arasında azərbaycanlılarla yanaşı digər millətlərin nümayəndələri də var idi.[24] Təkcə Xəzər Dəniz Gəmiçiliyinin əsasən rus, yəhudi və bir neçə azərbaycanlıdan ibarət yüzlərlə işçisi əksinqilabi fəaliyyətdə günahlandırılaraq məsuliyyətə cəlb olundular.[25]

Azərbaycan SSR prokuroru Adil Babayev 1955-ci ildə Azərbaycan KP MK-nın birinci katibi İmam Mustafayevə təqdim etdiyi arayışda həmin dövr haqqında yazırdı ki, XDİK-nın məlumatlarına əsasən Azərbaycan əhalisinin bütün təbəqələri əksinqilabi fəaliyyətə cəlb edilib, fərqli əksinqilabi təşkilatlara üzv olublar. Köhnə yeraltı fəaliyyət göstərən partiya işçiləri Sovet İttifaqının düşməni elan edilirdilər, partiya rəhbərləri və sovet işçiləri çox asanlıqla elə yolüstü bir- birlərini fərqli əksinqilabi təşkilatlara cəlb edirdilər, ermənilər müsavatçı olurdular, rus

[24]V. Danilov, "Kuda idot Rossiya?", Formal'nyye instituty i real'nyye praktiki: Materialy devyatogo mezhdunarodnogo simpoziuma, M., 2002, c. 322-323.

[25]E. İsmailov, *a.g.e.*, s.113.

fəhlələri Azərbaycanda burjua-millətçi hakimiyyətin qurulması uğrunda mübarizə aparırdılar, yaşlı, əldən düşmüş professorlar isə terrorçu qruplaşmaların döyüşçüləri kimi qeyd olunurdular.

Bəzi XDİK işçilərinin siyasi və mədəni biliklərinin çox az olması həbs olunanların gülünc ittihamlarla təqsirləndirilmələrinə gətirib çıxarırdı. Misal üçün kefiyyətsiz muxamor kağızının istehsalına görə ziyanvericilik etmək, arabanın təkərinin ziyanvericiliklə qırılması, Azərbaycanın ZSFSR-dan ayrılıb müttəfiq respublikaya çevrilməsi və nəhayət Azərbaycan Dövlət Universitetinin dövlətdən ayrılması ittihamları.[26]

**4-Kütləvi repressiyalar**

1936-cı ildən etibarən Fəhlə-Kəndli Qızıl Ordusunun sıralarında həbslər başlandı. 1937-ciiliyunun 11-də SSRİ Ali Məhkəməsinin iştirakı ilə Xüsusi məhkəmə qarşısına marşal Mixail Tuxaçevski və dahayeddinəfər (İonaYakir, İorenimUboreviç, RobertEydeman, Boris Feldman, Avqust Kork, Vitaliy Primakov, Vitovt Putna) çıxarıldı. İddiaya görə bütün təqsirləndirilən şəxslərantі-sovet trotskiçi hərbi təşkilatın üzvləri idilər. Lev Trotski, onunoğlu Lev Sedov, 1937-ci ilin yanvarında məhkum edilmiş Georgiy Pyatakov və Leonid Serebryakov, ovaxta qədər həbs olunmuş Nikolay Buxarin və Aleksey Rıkov, eləcə də Almaniya Baş Qərargahı ilə əlaqədə olublar.

Təşkilatın hədəfi SSRİ-nın Almaniya və Polşa qarşısında məğlubiyyəti vəziyyətində hakimiyyəti ələ keçirmək olub. Qırmızı Ordunun rəhbərheyətinə qarşı başlamış hərbi-faşist işbirliyində iştiraketmə ittihamı mütəffiq respublikalardan da yan keçmədi.[27] Azərbaycan diviziyasının briqada komandiri Cəmşid Naxçıvanski, Həsən Rəhmanov, briqada komissarı Cabbar Əliyev kimi hərbiçiləri də repressiya qurbanı oldular.[28] Repressiyalar Azərbaycan Kommunist Partiyasının partiya rəhbərliyinin əksəriyyətini məhv etdi. Mir Bəşir Qasımov və Yusif Qasımovdan başqa bütün „Hümmət" üzvləri repressiya qurbanı oldular, adları çəkilənlər isə həbs edildilər. Kommunist elitasının köhnə qvardiyası"məhv edildi. Dadaş Bünyadzadə, Sultanməcid Əfəndiyev, Həmid Sultanov, onun həyat yoldaşı Ayna Sultanova, Teymur Əliyev, Ruhulla Axundov, Hüseyn Rəhmanov, Çingiz İldırım, Mirzə Davud Hüseynov,Mustafa Quliyev, Əliheydər Qarayev, Qəzənfər Musabəyov,İsay Dövlətov kimi sosializmin ən parlaq təmsilçiləri repressiya qurbanı oldular.Böyük terror" vaxtı partiya üzvlərinin sayı xeyli azaldı. Əgər böyük terror"dan əvvəl 1 yanvar 1937-ci il tarixinə Azərbaycan Kommunist Partiyası

[26]V.Khaustov, *Samuel'son L. Stalin*, NKVD i repressii 1936–1938 gg. M.,2010, s.202.

[27]Mil'bakh, Spartakovich V., Lar'kin V. Komanduyushchiye voyskami Zakavkazskogo voyennogo okruga v 1937–1938 gg. i ikh rol' v protsesse massovykh politicheskikh repressiy komandno-nachal'stvuyushchego sostava // Noveyshaya istoriya Rossii., M.,2016, c.198.

[28]Mil'bakh, Spartakovich V., Lar'kin V. *a.g.e.*, c.199.

üzvləri və namizədlərinin ümumi sayı 47.194 nəfər idisə, 1938-ci il yanvarın 1-nə bu say 45.331 nəfərə düşdü. Azərbaycan Kommunist Partiyasının 1937-ci il 3-9 iyul tarixlərində keçirilmiş XIII qurultayında 34.211 nəfər üzv 12.906 nəfər namizəd var idisə, bir il sonra -1938-ci ilin 7-14 iyul tarixlərində keçirilmiş XIV qurultayda üzvlərin sayı 32.135-ə, namizədlərin sayı isə 12.494 (ümumi 44.629 nəfər) nəfərə düşmüşdü. Repressiyalar dövründə böyük hay-küyə səbəb olan hadisələrdən biri də Şamaxı prosesi oldu. 1937-ci ildə oktyabrın 27-dən noyabrın 2-dək davam edən Şamaxı işi üzrə dinləmələrdə baş qəhrəman" Həmid Sultanov idi.Həmid Sultanovla yanaşı müttəhimlər kürsüsündə 13 nəfər- Azərbaycan K(b)P Şamaxı Rayon Komitəsinin birinci katibi Xəlfə Hüseynov, Şamaxı İcraiyyə Komitəsinin keçmiş sədri İsrafil İbrahimov, Azərbaycan K(b)P Şamaxı Rayon Komitəsinin ikinci katibi Aram Avalov, rayonun prokuroru Əhməd Əmirov, Şamaxı şərab sovxozunun direktoru Əlisahib Məmmədov, rayon torpaq şöbəsinin müdiri Georgi Yurxanov, rayonun baş baytarı Ağalar Kələntərov, yol şöbəsinin müdiri Məmməd Mirzə Heybalıyev, kolxoz sədri Mirəli Tanrıverdiyev, kolxozun anbardarı Sirac Cəbiyev, kolxoz partiya komitəsinin katibi Əli Sadıqov, kənd sovetinin sədri Babalı Bəkirov və kənd sakini Məmməd Hüseynov da vardı. Məhkəmə 9 nəfəri-Həmid Sultanov, Xəlfə Hüseynov, İsrafil İbrahimov, Əhməd Əmirov, Aram Avalov, Georgi Yurxanov, Əlisahib Məmmədov, Ağalar Kələntərov və Məmməd Hüseynovu ölüm hökmünə məhkum etdi. Digər 4 nəfər isə 8-20 il arası əmək düşərgələrinə sürgün olundular.

Repressiyanın növbəti qurbanlarından biri də *Əliheydər Qarayev* oldu.[29] 1937-ci il iyunun 1-də Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının xüsusi tələbi ilə Ə.Qarayev və onun həyat yoldaşı-həkim Xavər Qarayeva-Şabanova Moskvada xalq düşmənləri kimi həbs edilərək Bakıya göndərildilər. 1938-ci il aprelin 21-də Əliheydər Qarayev güllələnməyə məhkum edildi. Repressiyalar Qarayev ailəsi üçün faciəyə çevrildi. Ə.Qarayevin həyat yoldaşı Xavər Şabanova-Qarayeva ancaq 1954-cü ildə bəraət qazanaraq azadlığa çıxdı. Qardaşı Əlövsət Qarayev Uzaq Şərqə qaçdı. Qarayevlər ailəsinin 11 üzvündən (ana, ata, yeddi qardaş və iki bacı) ancaq iki qardaş sağ qaldı, digərləri ya məhv edillər, ya öldülər, ya da dünyadan əlil olaraq köçdülər. Vətən xaininin oğlu damğası SSRİ Dövlət Mükafatı laureatı, geofizik Nazim Qarayevdən də yan keçmədi.

1938-ci ildə M.C.Bağırovun göstərişi ilə Azərbaycan SSR Xalq Komissarları Soveti sədrinin 1-ci müavini Manaf Xəlilov, Xalq Daxili Ticarət komissarı İbrahim Əsədullayev, Xalq Əkinçilik komissarı Əbülfət Məmmədov, Xalq Yüngül Sənaye komissarı İskəndər Əliyev, xalq rabitə komissarlığının səlahiyyətlisi Yefim Rodionov, Xalq Komissarları Sovetinin məsul işçisi

---

[29] *Mir Cəfər Bağırovun məhkəməsi, a.g.e.,* s.2.

Lyuborski-Novikov həbs edildilər. M.C.Bağırovla əlbir olanlar onlara qarşı ehtiyatda olan sağ-trotskiçi mərkəzinin əksinqilabi milliyyətçi təşkilatının rəhbərləri olduqları haqqında saxtalaşdırılmış ittiham irəli sürdülər. M.Bağırovun əlaltıları bu şəxslərə qarşı işgəncələr və zorakılıq işlədəndən sonra, onlar çoxlu sayda başqa təqsirsiz insan haqqında saxta ifadələr verməyə məcbur edildilər.

Azərbaycan elmi də öz faciəli dövrünü yaşadı. 20-ci illərdə respublikada elmin təşkilati əsaslarının formalaşması və ziyalıların sürətli tərəqqisi prosesi getdiyi, Azərbaycan elmi öz fəaliyyətini addım-addım təkmilləşdirərək, əsas bilik sahələrini, müvafiq elmi müəssisə və təşkilatları özündə birləşdirən aparıcı nəzəri tədqiqatlar mərkəzinə çevrildiyi halda, 30-cu illərdə Azərbaycan elminin və bütövlükdə Azərbaycan ziyalılarının ən qabaqcıl nümayəndələri, öz xalqına sədaqətlə xidmət edənlər müxtəlif uydurma və cəfəng ittihamlarla vəhşicəsinə məhv edildi. Müxtəlif ixtisasları təmsil edən yüzlərlə alim haqsız yerə mühakimə edilərək güllələndi və ya uzunmüddətli həbs cəzasına məhkum olundular. 1933-cü ildə alimlərin kütləvi həbs edilməsi halları çoxaldı. Repressiv aksiyaların həyata keçirilməsi əlaqələndirilmiş şəkildə aparıldı və qabaqcadan ölkənin ali rəhbərliyi tərəfindən müəyyən edilən konkret müddətlərdə və miqyasda planlaşdırıldı.

1937-ci ildə 12493 nömrəli iş (alimlərin işi) üzrə alimlərin çoxuna I Türkoloji qurultayda, SSRİ-nin türkdilli respublikalarında keçirilən elmi konfrans və ezamiyyətlərdə iştirakı, türk xalqlarının tarixi, etnoqrafiyası, dili və ədəbiyyatı sahəsində tədqiqatları, ali məktəblərdə türkoloji fənlərin tədrisi və s. kimi iradlar tutuldu. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində saxlanılan Azərbaycan K(b)P MK katibi M.C.Bağırovun Xalq Daxili İşlər Komissarının müavini Gerasimova ünvanlandığı məktubda deyilir: Bu gün üstü açılan və ifşa edilmiş düşmənlərimizin, xüsusən də Çobanzadə, Qubaydullin və başqalarının çoxsaylı məhkəmə ifadələri ilə təsdiqini tapan bir çox işlər əsasını hələ o dövrdən (Türkoloji qurultaydan-red.) götürür. Ona görə də, xahiş edirəm ki, sonrakı istintaq zamanı Azərbaycanda aparılan əksinqilabi pantürkist və panislamist fəaliyyətin tam mənzərəsinin və tarixinin aydınlaşdırılması üçün aşağıdakı faktlara xüsusi diqqət yetirilsin:

*Xalq Maarif Komissarlığı ali və orta məktəblərə əcnəbi müəllimləri qəbul edir, hətta türk müəllim və alimlərini xaricdən də dəvət edir. Müəllim adı altında isə fəaliyyətini genişləndirmək məqsədi ilə türk casusları gəlirlər. Məsələn, İsmayıl Hikmət, Əbdül Cəfər Əfəndi, Mustafa İsmayıl Tefik, Akif bəy, Xalid Səid. Bakıda türk müəllimlərin sayı 25-ə qədərdir. Bu qrupa Türkoloji qurultayla bağlı əvvəlki qeydlərimizdə şəxsiyyətindən kifayət qədər bəhs olunan prof. B.Çobanzadə də daxildir. M.Köprülüzadə və Messaroşla əlaqədədir, əgər buraya yerli müsavatçı pedaqoqları da əlavə etsək, onda nəinki təhsil alan gənclərə, hətta mədəni*

*müəssisələrimizin, xüsusən də Xalq Maarif Komissarlığının rəhbər dairələrinə olan təsir mənbəyi tam aydınlığı ilə aşkarlanar. Bakıda çağırılan I Türkoloji qurultayın təşkilat komissiyasının işində bu, özünü daha aydın şəkildə göstərmiş oldu, xüsusən də şəxsən dəvət olunmuşların siyahısı tərtib olunarkən, oraya bəzi istisnalar edilməklə, SSRİ türk-tatar xalqlarının bütün millətçi-şovinistlərinin, xaricdən isə Köprülüzadə, Əli bəy Hüseynzadə, Messaroş və b. adlarının salınması oldu. Bütün bunlara o da əlavə olunmalıdır ki, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti öz fəallarının tərkibinə yalnız yuxarıda adları çəkilən şəxsləri və onlara yaxın millətçi-şovinistləri daxil etmişdi. Belə olan şəraitdə Azərbaycanın mədəni həyatının millətçi, pantürkist hərəkatla zəbt olunması üçün münbit zəmin yaranmış olur. Təcili olaraq məsələni əsaslı surətdə araşdırıb, siyasətimizi yenidən qurmalıyıq*".[30]

I Ümumittifaq Türkoloji Qurultay"ın iştirakçılarının demək olar ki, hamısı millətçi, pantürkist və müsavatçı damğası adı ilə məhv edildilər. I Türkoloji qurultayın Azərbaycan SSR-dən olan 16 nəfər iştirakçısı və təşkilatçısı (Ağamalıoğlundan başqa, o, 1930-cu ildə vəfat etmişdir) repressiyaya məruz qaldı. Azərbaycanda görkəmli və tanınmış alimlərdən B.V. Çobanzadə, X.S. Xocayev, A.M. Tağızadə, A.R. Zifeldt, İ.M. Həsənov, Q.K. Bağırov, H.B. Zeynallı, M.Ə. Ələkbərli, Əli Nazim, Salman Mumtaz, T.A. Şahbazi, V.M. Xuluflu, Q.S. Qubaydullin, C.M. Məmmədzadə və b. repressiya olundular.

Müharibəyə qədərki dövr institutun həyatında direktorların tez-tez dəyişdirilməsi, institut əməkdaşlarının kütləvi repressiyası ilə müşayət olundu. 1937-ci ildəhəbsinə hazırlıq görülən A.Zifeldt-Simumyagi institutun direktoru vəzifəsindən çıxarıldıvə baş elmi işçi keçirildi.[31]

İrəvanda Xalq Maarif Komissarlığı (XMK) kollegiyasının üzvü və Milli Azlıqlar Şurasının sədri (1928-1929), Bakıda XMK kollegiyasının üzvü və təşkilat şöbəsinin müdiri (1929-1930) vəzifələrində işləmiş, 1930-cu ildə Azərbaycan K(b)P MK tərəfindən Moskvaya - Qırmızı Professorlar İnstitutunda (QPİ) təhsil almağa göndərilmişƏ.Əhmədovun da taleyi faciə ilə başa çatdı. O, 11 iyul 1937-ci il iyulun 11-də həbs edildi, qısa müddətli istintaqdan sonra İ.O.Matuleviçin sədrliyi ilə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının 12 oktyabrda keçirilən iclasında Ə.Əhmədov - ən ağır cəzaya-güllələnməyə məhkum edildi və hökm 1937-ci ilin oktyabr ayının 13-də yerinə

[30]6, f.1,siy. 88, iş 3, v.1-8.
[31]B. Rəfiyev, *a.g.e.*, s.96.

yetirildi.[32] Faktlar, sənədlər, istintaq qovluqlarındakı ifadələr göstərir ki, SSRİ-də baş vermiş bu dövlət terroru, repressiyalar Azərbaycanda da çox böyük miqyas almışdır. Əhalinin hər min nəfərinə düşən respressiyaya məruz qalanların sayına görə Azərbaycan birinci yeri tuturdu.[33] Azərbaycan ziyalılarının 100 mindən çox nümayəndəsi-alimlər, yazıçılar, aktyorlar, müəllimlər, hərbçilər, din və partiya xadimləri Sibirə və Qazaxıstana sürgün olundular. Repressiya nəticəsində xalqımız zehni sərvətindən və intellektual potensialından məhrum edildi. Nəticədə, xalqın genofondu məhv edildi, nəsillər arasında əlaqələrin kəsildi. Bir sözlə, Azərbaycan cəmiyyətinin qaymaqları – qeyri-adi düşüncə tərzinə, mənəviyyata, müxtəlif sosial mənşəyə malik olan istedadlı, görkəmli insanların adları tarixdən silindi.[34] Alimlərlə birlikdə onların əsərləri də məhv edildi. Çoxillik araşdırmaların hələ çap edilməmiş nəticələri olan minlərlə səhifə elmi əsərlər, şəxsi arxivlər, sənədlər, əlyazmalar, kitablar, kitabxanalar məhv edildi, təkcə ictimai fondlardan deyil, şəxsi kitabxanalardan, kitab mağazalarının piştaxtalarından da müsadirə olundu.

Bitərəf türk ziyalılarından B.V.Çobanzadə və görkəmli tatar tarixçisi Q.S.Qubaydullin, azərbaycanlı kommunist alimlərin nümayəndələri Ruhulla Axundov, Vəli Xuluflu və b. Azərbaycanın partiya və dövlət rəhbərlərinin nəzərində etibarsız sayıldılar. Yaşlı nəslə mənsub olan ziyalılar burjua millətçiləri elan edildilər. H.B. Zeynallı milli təmayülçü adlandırıldı. R.Ə.Axundovla işləmiş və ona salam vermiş bütün adamlar, onun gizli təşkilatının üzvü sayılaraq həbs edildilər. R.Ə. Axundov həbs ediləndən sonra işin saxtalaşdırılması istiqamətlərindən biri onun rəhbərlik etdiyi elmi mərkəzdə ziyankarlıq məsələsi oldu.[35] 1937-ci ildə repressiyalar dalğası başlayanda alimlərin işi üzrə cəfəng bəhanələrlə həbs edilənlər sırasında SSRİ EAAzF-nın Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, Maddi-mədəniyyət tarixi seksiyasının rəhbəri, Ələsgər Ələkbərovun da adı vardır. Hələ I Türkoloji qurultay dövründə Azərbaycanın Baş Siyasi İdarəsində müsavat təmayüllü millətçi şovinist kimi qeydə alınan Ə.Ələkbərov məktəb və tələbəlik dostları Əli Yusifzadə, Məmmədhəsən Baharlı (Vəlili), Əbülfəz Babayev, Məmmədhəsən Baxşəliyev ilə ünsiyyət saxlamaqda təqsirləndirildi. Dəfələrlə sorğu-sual ediləndən sonra alimin bu şəxslərlə münasibətlərinin əksinqilabi xarakterli olmadığı müəyyən edildi və o, həbsdən azad olundu.

Azərbaycan SSR Xalq Daxili İşlər Komissarı vəzifəsinə L.P.Beriya yaxşı tanıdığı, anası erməni, atası gürcü olan Y.Sumbatovu təyin etmişdi. Tamam savadsız, hətta öz tərcümeyi-halını

---

[32]Ə. Tahirzadə, *Əhməd Əli oğlu Əhmədov*, 525-ci qəz., 2005, 8, 11 yanvar.
[33]Brat'ya Naveki. *a.g.e.*, c. 188.
[34]Aliyev Geydar, *Na styke tysyacheletiy,* Baku 2001.s.130.
[35]F. Ashnin- V. Alpatov, Delo Rukhully Akhundova, Vostok, 2002, №2, s. 99-100.

yazmağa belə qadir olmayan bu adam ancaq məhbusları döymək və işgəncə verməklə məşğul idi.[36] M. Bağırovun vaxtında DTK-da azərbaycanlı müstəntiqlər olsa da, onlara ciddi işlər verilmirdi. Ciddi işləri azərbaycanlı olmayan Şer, Tsinman, Markaryan, Ohanesyan, Qriqoryan, Avanesyan, Musatov, Borşov, Borisov, Klemençiç, Durlyanin, Sonkin qardaşları, Platonov və başqaları aparırdılar.

Həbs edilənlər amansız işgəncələrə məruz qalırdılar. Onların heç də hamısı buna dözməyərək əvvəlcədən uydurulmuş hər hansı ittihamı imzalamağa məcbur olurdular. Bağırovun dövründə Fövqəladə Komissiyada (FK) və Baş Siyasi İdarədə (BSİ) mövcud qaydalar Azərbaycan SSR XDİK-in Baş Siyasi İdarəsinin əməkdaşı V.İ.Çuraşovun (1932-ci ildən 1954-cü ilədək Azərbaycan Baş Siyasi İdarə, XDİK, DTN və DİN orqanlarında işləmişdi) verdiyi ifadələrdə göstərilir ki,

*Onları yumruqla, təpiklə, rezin dəyənəklə döyürdülər. Məhbuslar çox vaxt stoyka üsuluna məruz qalırdılar: yəni onları bir neçə sutka boyu dindirilir və həmin müddətdə ayaq üstdə saxlanılırdılar. Bu üsulla dindirilən dustaqların qan dövranı pozulur, ayaqları şişir, aşağı ətraflara qanın çox axması nəticəsində beyninin qanla təminatı pozulur, çoxu üç sutkadan sonra huşunu itirir, onları qara basır, döşəməyə yıxılırdılar. Bu işgəncəyə çox az adam tab gətirə bilirdi. Müstəntiqlər bu qanunsuz üsulları tətbiq etməklə məhbuslardan özlərinə sərfəli olan yalan ifadələr almağa nail olur, sonra da bu yalan ifadələrdən günahsız adamların həbs olunması üçün istifadə edirdilər. Məhbus imtina edəndə onu döyməkdə davam edir və o, ölümcül vəziyyətdə saxta protokolu imzalamağa məcbur olurdu.*[37] Lakin Salman Mümtaz, Həsən İmanov, Seyid Hüseyn, Ağamir Məmmədov, Ələsgər Ələkbərov və başqaları kimi güclü xarakterə malik olan insanları istintaq „sındıra" bilmədi. Onlar günlərlə davam edən işgəncələrin, dindirilmələrin bütün dəhşətlərinə davam gətirdi və heç kəsə böhtan atmadılar.

Tarix İnstitutun əməkdaşlarından repressiyaya məruz qalanlar arasında *Qəhrəman Qaraqaşlı, Cavad Bağırov, Vahab Həsənzadə, Əli Hüseynzadə və Avadya Avadyayev* də var idi. Repressiya sənədləri ilə tanışlıq göstərir ki, 12493 nömrəli istintaq işi üzrə məsuliyyətə cəlb edilənlər arasında ADU-nun 1926-1937-ci illərə qədər rektorları olmuş Tağı Şahbazi (1926-1929), Maqsud Məmmədov (1929-1930), Məmmədkazım Ələkbərli (1934-1935), Balabəy Həsənbəyov (1935-1937), Şərq və Tarix fakültələrinin dekanları da güllələndilər.[38]

---

[36]A. Babayev, *Türksoyun birlik səsi,* Bakı 2006, s.173.

[37]*Mir Cəfər Bağırovun məhkəməsi, a.g.e.*, s.59.

[38]S. Hacıyev- B. Əziz, *İctimai fikrin inkişafı və milli oyanışda BDU-nun yeri*, Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, 2009, №3, s.62.

Repressiya dalğasından ən çox zərbələr alan fakültələrdən biri də məhz ADU-nun Tarix fakültəsi oldu. Fakültənin dekanı, professor B.N.Tixomirov, dekan müavinləri dosent Baba Əsgərov və dosent H.Biləndərli, Müstəmləkə və asılı ölkələr tarixi kafedrasının müdiri, professor A.Bukşpan, SSRİ xalqları tarixi kafedrasının müdiri, professor Q.Qubaydullin və digərləri günahsız yerə həbs edilərək güllələndilər. ADU-da ən çox cəzaya məruz qalan SSRİ xalqları tarixi, Siyasi iqtisad və Fəlsəfə kafedralarının əməkdaşları oldular. 1937-ci ildə ADU-nun rektoru, professor B.Həsənbəyov həbs edildikdən sonra onun başçılıq etdiyi Siyasi iqtisad kafedrasının müəllimləri professor Anatoliy Çiçikalov, professor Safronoviç, dosent Əli Məmmədbəyov, dosent İsrafil Axundov, ADU-nun partiya təşkilatının katibi Əbdül Yusifov, hazırlıq şöbəsinin müdiri Baba Babayev və b. cəza aparatının qurbanı oldular. 30-cu illərdə ADU-nun müəllimlərindən Ağamir Məmmədov, Əhməd Kazımov, Heydər Verdiyev, Ədil Abdullayev, Abbas Yusifov, Cavad bəy Rəfibəyov, Mirzə Məmmədov, Əsgər Quliyev, Əbülfəz Quliyev, Əşrəf Quliyev, Əbülfəz Axundov, Məcid Həmzəyev, Nikolayev, Belyayev, Drabkin və b. ,həmçinin Bakıda yaşayan və Sovet İttifaqının müxtəlif yerlərindən işləməyə dəvət olunan istedadlı, yüksək ixtisaslı tarixçi kadrlar - rus, yəhudi, tatar, ərəb, alman, eston və eləcə də digər millətlərin nümayəndələri də repressiyaya məruz qaldılarrepressiyaya məruz qaldılar.

Repressiyalar məhkum olunanların ailələrinə də şamil edilirdi. Onların həyat yoldaşları xalq düşmənlərinin arvadları adlandırılaraq həbs edilir, işgəncələrə məruz qalır və əsasən, Mordoviyaya, Temnikov düşərgələrinə və Kareliyaya həbs düşərgələrinə göndərilirdilər.[39]

Repressiyanın qurbanları arasında qadınlar da vardı. Onlardan biri də etnoqraf Rəxşəndə Babayeva idi. Vətən xainlərinin ailə üzvləri kimi həbs olunmuş Əhməd Cavadınhəyat yoldaşı Şükriyyə Cavad, Mikayıl Müşfiqinhəyat yoldaşı Dilbər Axundzadə, tarixçi Qaziz Qubaydullinin həyat yoldaşı Rəbiqə Qubaydullina, şərq-şünas Bəkir Çobanzadənin həyat yoldaşı, Bakı Opera Teatrının aktrisası Ruqiyyə Abdulina, bir sıra qəza komitələrinin sədri olan həyat yoldaşı Sitarə Qarayeva, Xosrov bəy Sultanovun qardaşı Sultan Sultanovun həyatyoldaşı Dilruba xanım üç oğlu və bir qızı repressiya olundular.[40]Azərbaycan SSR Xalq Mədəniyyat komissarı, Azərbaycan KP-nın Naxçıvan Vilayət Komitəsinin birinci katibi olmuş Həsən Rəhmanovun ailəsini isə öncə Altay diyarında yerləşən Sintaş mədəninə sonradan isə Semipalatinskə sürgün etdilər. Rəhmanovlar ailəsinin 17 üzvü repressiyaya məruz qaldı.[41]

---

[39]C. Qasımov, *Məhbus tərcümeyi-halı,* Bakı 2003, s.67.
[40]A. Rahmanova, *a.g.e.,* c.20.
[41]V Rossii skonchalas' vydayushchiysya uchenyy- azerbaydzhanka oxu.az.

1937-ci ildə Əhməd Cavad həbs olunandan sonra Mircəfər Bağırov Əhməd Cavadın həyat yoldaşı Şükriyyəxanıma Cavaddan boşanmağı təklif etdi. Yoxsa həbs edəcəkləri bildir-di. Şükriyyə xanımın isə Mircəfər Bağırova Bəlkə də Cavadı güllələyəcəklər. Amma mənim boşanma ərizəm ona gülədən ağır olacaq. Mən Əhməd Cavada görə atam Süleyman bəyi ayaqlayıb, ona qoşulub qaçmışam. Amma Cavadı heç vaxt ayaqlamaram dedi.[42] Qazaxıstanın dəhşətli düşərgəsində ömrün səkkiz ilini keçirən Şükriyyə xanım odun doğradı, yük daşıdı, dərzilik, aşpazlıq elədi. 1955 - ci il iyulun 30-da bəraət alan Şükriyyə Vətənə dönəndən sonra şəhərbəşəhərgəzib balalarını başına yığdı, Şəmkirin Seyfəlli kəndində - Əhməd Cavadın ata yurdunda yaşadı, dünyayla da orda vidalaşdı.[43] Sürgün olunanlar arasında gələcəkdə məşhur tibb işçisi olacaq 8 yaşlı qızı Aza Rəhmanova da var idi.[44] 1937-ci ildə həbs olunaraq güllələnmiş Azərbaycan SSR Laçın Partiya Komitəsinin birinci katibi Teymur Salahovun oğlu məşhur rəssam Tahir Salahov əla qiymətlərinin olmasına baxmayaraq „xalq düşməninin" övladı olduğu üçün Repin adına Peterburq İnstitutuna daxil ola bilmədi.

**5-Azərbaycan mühacirəti**


*M.Ə.Rəsulzadə*

Repressiyalar təkcə ölkə daxilində aparılmırdı. Azərbaycan mühacirəti də repressiya maşınının hədəfində idi. Məlum idi ki, Azərbaycan mühacirəti əsasən, Türkiyədə toplaşmış, Türkiyə onların ikinci vətəninə çevrilmişdi. ADR-in təhlükəsizlik orqanına rəhbərlik etmiş Nağı Şeyxzamanlı yazırdı ki, bolşeviklər hakimiyyətə gəldikdən sonra onlar vətəni tərk etdilər, Türkiyədə yaşadılar, lakin özlərini vətənsiz hesab etmədilər.

Məmməd Əmin Rəsulzadənin Türkiyəyə gəlməsi ilə (1922) burada Azərbaycan mühacirətinin ilk siyasi təşkilatı Müsavat Partiyasının Xarici Bürosu yaradıldı. Büro Azərbaycanda gizli fəaliyyətə keçən Müsavat təşkilatı ilə əlaqə saxlayırdı.

Xaricdəki Azərbaycan mühacirəti nümayəndələrinin fəaliyyəti sovetlər birliyinin rəhbərliyini, şəxsən Stalini narahat edirdi. 1922-ci ildə Türkiyədə M.Ə.Rəsulzadənin Azərbaycan Cümhuriyyəti əsəri nəşr olunanda İ.Stalin Azərbaycan K(b)P MK rəhbərliyinə 16 sentyabr 1923-cü il tarixdə məktub göndərərək Musabəyova, Mirzəyana, Axundova, Kirova və Orxelaşviliyə məsləhət görmüşdür ki, Rəsulzadə əleyhinə cavab hazırlasınlar. Məktubda cavabın ümumi ruhunun hücum xarakterli olması, heç bir halda Rəsulzadənin özünü təmizə çıxarmasına və müdafiə olunmasına yol verilməməsi bildirilirdi. Məktubda M.Ə.Rəsulzadənin 1.*Dönüklükdə (o əvvəlcə*

[42]https://qadinkimi.com/az/ehmed-cavad-ve-onun-sevgilisi-sukriyye-xanim/(12.12.2021).
[43]V. Khaustov, Samuel'son L. Stalin, NKVD i repressii 1936–1938 gg. M.,2010.s.50.
[44]F. Dzhakhannuri, (Gashimova), *Zhertvy ctalinskikh repressiy v Azerbaydzhane,* Mutardzhim, Baku 2010.s.50.

*bolşevik idi);2.Türkiyə xalqının mənafeyinə xəyanətdə (o və onun həmfikirləri-müsavatçılar-Türkiyə xalqına kömək edən Qızıl Ordunun Azərbaycana daxil olması əleyhinə çıxırdı);3.Azərbaycan xalqının mənafeyinə xəyanətdə (o və onun partiyası Azərbaycan kəndlilərinin bəylərin zülmündən tam azad olunması əleyhinə çıxırdı);4.Şərq xalqlarının mənafeyinə xəyanətdə (o və onun partiyası Şərq azadlıq hərəkatının dayağı və bayraqdarı olan sovet respublikalarının proletariatı əleyhinə müstəmləkə və asılı ölkələrin qəddar düşməni İngiltərə qarşısında quyruq bulayırdılar);5.Müsavat ağalığı dövründə ermәni-tatar qırğınının təşkilində (buradaca onu Azərbaycan Pruşkeviçi adlandırmalı);6.Şamaxı talanının təşkilində (buradaca onu Azərbaycanın talançısı adlandırmalı) günahlandırılırdı.* Aydındır ki, Stalin Rəsulzadəni xəyanətkarlıqda təqsirləndirərək ona qarşı hücuma keçməyə çağırırdı. Rusiya XİK Çiçerin də IV Ümumazərbaycan Sovetlər qurultayındakı çıxışında müsavatçıların Türkiyədəki fəaliyyətindən narahatlığını bildirmişdir.Azərbaycanın ruspərəst partiya və dövlət xadimləri-M.D. Hüseynov, Ə.N. Qarayev, D. Bünyadzadə, M. Quliyev, S.M. Əfəndiyev, tədqiqatçılardan A. Rayevski, Y.A. Ratqauzer, N. Prelin, S.Sef, A. Steklov və b. mühacirlərin ifşası üçün kitabça-lar yazır, çıxışlar edirdilər. Azərbaycan Fövqəladə Komissiyasının sədri M.C.Bağırov bir zamanlar üzv olduğu Müsavat partiyasının fəaliyyətini kəskin tənqid edirdi.

1953-cü ilin mart ayında İ.Stalinin vəfatından sonra partiya və hökumət strukturlarında hakimiyyət uğrunda mübarizə qızışdı. Partiyanın XX qurultayından (fevral 1956-cı il) sonra 30-40-cı illərin repressiyalarının və onların nəticələrinin obyektiv işıqlandırılmasında müəyyən dönüş yarandı. Azərbaycan Respublikası MTN arxivindən tapılmış və ilk dəfə elmi dövriyyəyə daxil edilən *SSRİ-nin Ali Məhkəməsinin Hərbi Kollegiyasının M.Bağırovun və başqalarının məhkəmə işi üzrə 26 aprel 1956-cı il tarixli qərarına əsasən* adlı məxfi materialda göstərilir ki, 1956-cı il ilin aprelin 26-da SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının sədri, ədliyyə general-leytenantı Q.A. Çeptsovun, üzvlər: ədliyyə polkovnikləri Q.Y. Kovalenko və A.A. Kostrominin, katiblər: kapitan M.V. Afanasyev və ədliyyə kapitanı N.D. Smirnovun, tərəflər: dövlət ittihamçılarının sədri, SSRİ-nin Baş prokuroru, həqiqi dövlət ədliyyə müşaviri R.A. Rudenkonun, vəkillər: V.N. Qavrilov, Y.M. Nutenko, P.Y. Boqaçov, Q.S. Semenovski, K.N. Apraksin, M.İ. Qrinyovun iştirakı ilə Bakı şəhərində keçirilən açıq məhkəmə iclasında M.C. Bağırovun, T.M. Borşovun, X.İ. Qriqoryanın, R.A. Markaryanın, A.İ. Atakişiyevin, S.F. Yemelyanovun Azərbaycan SSR Cinayət məcəlləsinin 63-2, 70, 73 maddələri ilə cinayətlərdə ittiham edilməsi işinə baxılaraq müəyyən edildi ki, "ittiham olunanlar 1935-ci ildən başlayaraq günahsız sovet vətəndaşlarının ağır dövlət cinayətlərində iştirakı barədə yalançı ittihamlar təşkil etmək məqsədilə, Bağırovun göstərişi ilə, vətəndaşların kütləvi şəkildə əsassız həbslərini həyata keçirmiş və sovet qanunları ilə qadağan olunmuş istintaq üsullarını tətbiq etmişlər.

**Nəticə**

Azərbaycan SSR-in xalq təsərrüfatında təxribatlar törətməkdə və ziyankarlıq əməllərində, Beriya, Bağırov və Sumbatov-Topuridzeyə qarşı terror aktlarını hazırlamaqda və açıq silahlı üsyanlar yolu ilə sovet hakimiyyətini devirməkdə, əksinqilabi təşkilatlar təşkil etməkdə ittiham edildilər. 1937-1938-ci illərdə məqsədyönlü şəkildə Azərbaycanın repressiyalara məruz qalmış genetik elmi fondun nümayəndələri arasında görkəmli alimlər, orijinal təfəkkür sahibləri *Ruhulla Axundov, Salman Mümtaz, Ələsgər Ələkbərov, İdris Həsənov, Rəşid İsmayılov, Vəli Xuluflu,Hüseynəli Biləndərli, Ağamir Məmmədov, Həsən İmanov, Əli Nazim (Mahmudzadə), Bəkir Çobanzadə, Əkrəm Cəfərov (Cəfər), Qazis Qubaydullin, Əhməd Əhmədov, Vahab Həsənzadə, Cavad Bağırov, Məmmədhəsən Baharlı (Vəlili), Aleksandr Bukşpan, Qəhrəman Qaraqaşlı, Mövsüm Salamov, Balabəy Həsənbəyov, Mustafa Vəkilov, Məcid Quliyev, Yusif Rəhimli, Olqa Sokolovskaya, İsgəndər Sitaşi, Yakov Hummel, Artur Zifeldt-Simumyaqi, İbrahim Əminbəyli, Əli Hüseynzadə, Panteleymon Juze, İbrahim Uaruar, Zinyətşah Zakirov, Mariya Quliyeva, Abbas Yusifov, Baba Əsgərov, İsrafil Kazımov, Əbdüləziz Salamzadə, Əli Məmmədbəyov, Əlisöhbət Sumbatzadə, İsrafil Axundov, Boris Tixomirov, Maqsud Məmmədov, Əli Səbri Qasımov, Əhməd Kazımov, Əşrəf Quliyev, Məcid Həmzəyev, Əbülfəz Axundov, Mikayıl Hüseynov, Xaim Qarber, Anatoliy Çiçikalov* kimi yüzlərcə istedadlı alim, elm və maarif xadimləri vardı. Azərbaycanda ictimai elmlərin təməlini qoyan bu insanların hər biri özlərini bütünlüklə elmə, öz xalqına həsr etmişdi. 30-40-cı illərdə Stalin repressiyaları nəticəsində misilsiz itkilər verən təkcə ziyalılar deyil, bütün milli mədəniyyətimiz oldu. Bununla belə, müharibədən əvvəlki illərdə alimlərin kütləvi şəkildə repressiya edilməsinə baxmayaraq, bütövlükdə bu illər ziyalıların, o cümlədən onun ən mühüm hissələrindən biri olan elmi kadrların yaranması ilə yadda qaldı, Azərbaycan ziyalılarının nümayəndələri respublikanın elmi, iqtisadi və mədəni inkişafına layiqli töhfələr verməyə çalışdılar. Məhkəmə tədqiqatı nəticəsində müəyyən olunmuşdur ki, Borşov 120-dən artıq, Markaryan və Qriqoryan 100-ə qədər, Atakişiyev 50-dən artıq, Yemelyanov 39 cinayət işini saxtalaşdırmışlar. Bunun nəticəsində yüzlərlə günahsız Azərbaycan vətəndaşı məhkum olunmuş, onların böyük əksəriyyəti isə güllələnmişdir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Azərbaycan SSR cinayət-prosessual məcəlləsinin 3.16 və 3.17 maddələrini rəhbər tutaraq, Azərbaycan SSR cinayət məcəlləsinin 63-2, 70-ci maddələrinə əsasən, törətdikləri cinayətlərə görə, M.C. Bağırovu, T.M. Borşovu, X.İ. Qriqoryanı, R.A.Markaryanı əmlakları müsadirə olunmaqla ən ağır cəzaya-güllələnməyə, A.İ. Atakişiyevi, S.F. Yemelyanovu isə əmlakları müsadirə olunmaqla (5 illiyə hüquqlarının məhdud-laşdırılması şərti ilə islah əmək düşərgələrinə göndərilməklə) 25 illiyə azadlıqdan məhrum

edildilər. 1956-cı il mayın 27-də M.C.Bağırovun, T.M. Borşovun, X.İ. Qriqoryanın və R.A. Markaryanın güllələnməsi, A.S. Atakişiyevin və S.F.Yemelyanovun isə 25 il azadlıqdan məhrum edilməsi barədə məlumatlar qəzetlərdə dərc olundu.

**Ədəbiyyat siyahısı**

ASHNIN, F.- ALPATOV, V., Delo Rukhully Akhundova, Vostok, 2002, №2, s. 99-100.

BÜNYADOV, Z., *Qırmızı terror,* Bakı 1993.

"Bol'shoy terror i sud'by azerbaydzhanskoy nauchnoy intelligentsii (30-ye gody KHKH stoletiya)", XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları IV Beynəlxalq elmi konfransın materialları, 22-27 aprel 2017-ci il Azərbaycan Respublikası, Lənkaran şəhəri, Xüsusi buraxılış, 2017, № 64 65, 66.

6, fond 1- Mərkəzi Komitə (MK), siyahı 85, iş 462, v 277.

*Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri*, Bakı 1964, s.325.

*Azərbaycan tarixi,* C.3, h.1, Bakı 1964, s.12.

*Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə, 1918-1920, Sənədlər və materiallar,* Bakı 1967, s. 138.

*Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə, 1918-1920, a.g.e.,* s.94.

BABAYEV, A., *Türksoyun birlik səsi,* Bakı 2006.

DANILOV, V., "Kuda idot Rossiya?", Formal'nyye instituty i real'nyye praktiki: Materialy devyatogo mezhdunarodnogo simpoziuma, M., 2002, c. 322-323.

DZHAKHANNURI, F. (Gashimova), *Zhertvy ctalinskikh repressiy v Azerbaydzhane,* Mutardzhim, Baku 2010.

GEYDAR, A., *Na styke tysyacheletiy,* Baku 2001.

HACIYEV, S. - ƏZIZ, B., *İctimai fikrin inkişafı və milli oyanışda BDU*-*nun yeri*, Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, 2009, №3, s.62.

İBRAHIMLI, X., *Azərbaycan mühacirəti tarixi,* Bakı 2012.

İnternatsional'naya pomoshch XI Armii v bor'be za pobedu Sovetskoy vlasti v Azerbaydzhane. Dokumenty i materialy, 1920-1921 gg, Baku 1989.

ISMAILOV, Ye., Vlast' i narod, *Poslevoyennyy stalinizm v Azerbaydzhane,* 1945–1953, Bakı 2003.

KHAUSTOV, V., *Samuel'son L. Stalin,* NKVD i repressii 1936–1938 gg. M., 2010, s.202.

QASIMOV, C., *Məhbus tərcümeyi-halı,* Bakı 2003.

MIL'BAKH, SPARTAKOVICH, V., Lar'kin V. Komanduyushchiye voyskami Zakavkazskogo voyennogo okruga v 1937–1938 gg. i ikh rol' v protsesse massovykh politicheskikh repressiy komandno-nachal'stvuyushchego sostava // Noveyshaya istoriya Rossii., M., 2016, c.198.

*Mir Cəfər Bağırovun məhkəməsi* (Arxiv materialları), Bakı 1993.

MIRZA BALA, *Otuz ikilerin dastanı,* Kurtuluş, 1935, № 9.

NADZHAFOV, D., *Kak Azerbaydzhan perezhil bol'shoy terror,* Interv'yu s uchenym-istorikom El'darom Ismaylovym, 1news.az, 9 avqust 2007.

ORCONIKIDZE, Q.K., *Məqalələr və nitqləri,* C.1, Bakı 1956.

RAKHMANOVA, A., *Memorial Vospominaniya, razmyshleniya,* dokumental'nyye svidetel'stva, Sankt-Peterburq 2016.

RƏFIYEV, B., *Gənc Azər,* Bakı 1991.

SAPAY, S., *Bakı nefti dünya şahmat taxtasında 1939-1945-ci illər (Rus dilindən tərcümə),* Bakı 2016.

TAHIRZADƏ, Ə., *Əhməd Əli oğlu Əhmədov,* 525-ci qəz., 2005, 8, 11 yanvar.

V Rossii skonchalas' vydayushchiysya uchenyy- azerbaydzhanka oxu.az.

YUNGE, M. - BORDYUGOV, G.- BINNER, R., Vertikal' bol'shogo terrora.
Istoriya operatsii po prikazu NKVD №00447. M. 2008.

ZEYNALOV, R., Voyennoye stroitel'stvo-voyenno-patrioticheskaya i oboronno-massovaya rabota v Azerbaydzhanskoy SSR v period stroitel'stva sotsializma (1920 — iyun' 1941 g.), Baku1990.

ISMAILOV, E., “Sovetskiy gosudarstvennyy terrorizm v Azerbaydzhane" (rus), ca-c.org(12.12.2021).

https://qadinkimi.com/az/ehmed-cavad-ve-onun-sevgilisi-sukriyye-xanim/(12.12.2021).